# PİFAQORUN ÜNLÜ DEYİMLƏRİ

**Pifaqoru çoxumuz bir riyaziyyatçı olaraq tanıyırıq, özlüyündə isə o, fəlsəfənin ilk yaradıcılarından biri olmuşdur. "Filosof", "kosmos" kimi terminləri elmdə ilk olaraq onun yaradıb işlətdiyi də bəllidir. Görkəmli ingilis riyaziyyatçısı, filosofu Bertran Rassel yazırdı: "Mən, İnsan düşüncəsini irəli aparan kimsələrin arasında Pifaqordan böyük sayıla biləcək kimsəni tanımıram".**

Heykəli onun gözəlliyi, insanı isə gördüyü işlər yaraşıqlı göstərir.

Öz düşkün istəklərindən asılı olan kimsə özgür sayıla bilməz.

Uşaqlarınızın göz yaşlarını qoruyun, qoy öz çağında onlar, sizin qəbrinizin üstünə tökülməyə yaraya bilsin.

Ağgünlü yaşamağın elmi yolu, bugünü gərəyincə yaşamağı bacarmaqdır.

Özünə gerçək arxadaş axtar, tapdınsa, tanrılara da gərək duymayacaqsan.

Elə yaşamağa çalış, arxadaşlarını yağılarına, yağılarını arxadaşlarına çevirməyəsən.

İnsanın üzü, onun ruhunun gözəlliyindən soraq verəndə ən gözəl olur.

Gücləri tən gələn ikisindən, kim doğrudursa, o da güclüdür.

Susmaqdan yaxşı olan nəsə deməyəcəksənsə, onda ən yaxşısı elə susmaqdır.

İçkiyə öyrəşmək, özünü anlamazlığa alışdırmaq üçün çalışmaqdır.

İçki düşkünü öz yaramazlığından necə qurtula bilər? Mən onun yerinə deyirəm: qoy o, içkili olanda elədiklərini tez-tez ansın.

Hamısından öncə, bütün nəsnələri öz adları ilə deməyi öyrən, bu–bütün gərəkli elmlərin ən birincisidir.

Ey Xalqlar! Yaxşı yasalar yaratmaqdan öncə, yaxşı qanacağınızın olmasına çalışın, yasalara uyğun yaşamaq, elə qanacaqlı olmaq deməkdir.

Gənclər! Özünüzü dərindən düşünməyə alışdırın, bu sizləri çox danışmaq düşüklüyündən çəkindirər.

Özünə yaxşı arxadaş tapa bilmirsənsə, onda çalış özünlə arxadaşlıq elə.

Ağgünlük axtarmağa yollanma, o–sənin özcə əlindədir.

Birdən səndən soruşsalar: "Ölüm nədir?"–Deyərsən: "Anlamazlıqdan böyük ölüm yoxdur".

Günün doğan, batan çağlarında gölgənin uzunluğuna baxıb, özünü böyük sanma.

Ancaq öz yazılarında bilgə(müdrik) görünənlərdən olma.

Gözəl tikililərinin, böyük abidələrinin yanında xalqı çox yoxsul, kiçik görünən şəhərdə yaşama.

Bədənini ruhunun tabutu eləmə.

Xalqın gözü qarşısında, onun inancına bağlı olan nəsənələrə gülməzlər, xalqa acımaq olar, ancaq onu ələ salmaq olmaz.

Krotonlular!* Tanrılara, sizinlə yaxşı davransınlar deyə qurbanlar verib, onları alçaltmayın.

Krotonlular! Haçağacan sizin şəhərinizdə varlılarla yoxsullar olacaq, oçağacan özünüzü özgür xalq saya biməzsiniz: yoxsullar dolanışıq ucbatından, istər-istəməz varlıların qullarına çevrilirlər.

Krotonlular! Qoy sizin ilk tanrılarınız günəşlə, yasalar olsun: birincisi sizin əməyinizi yönətir, ikincisi davranışınızı.

Ey bilgə! Sən xalqa aşılamaq istədiyin hansısa doğruya, elliyin istəyi donunu geyindirməyi bacarmasan, əməyin boşuna gedəcək. Elliyin istəyi deyilən nəsnə, bütün xalqların inandığı bir yasadır.

Krotonlular! Tanrılarınızın əlinə qamçı verməyin: yoxsa o sonradan, sizləri uşaq yerinə, qul yerinə qoyub, yazıqlayacaqdır.

Xalq onun gözünü qamaşdıran nəsnələrə sayqı duyur, onun Günəşi tanrı sayması da buna görədir. Bir də xalq ən çox, təpərli tanrıları sevir.

Ey yasalar yazan! Sən öz işində Təbiəti yamsılamağa çalış: görürsən, onun ayrı-ayrı gerçəklikləri də, onların toplusu da, necə bitkin görünür.

Adamların mülkiyyət ayrı-seçkiliyi qaldıqca, onların hüquq ayrı-seçkiliyi aradan qalxmayacaqdır.

Xalqın hansı qanacağın yiyəsi olduğunu bilmək istəyirsənsə, ilk öncə onun dilini öyrən.

Öz istəklərinin ölçüsünü, düşüncələrinin çəkisini, sözlərinin sayını bil.

Özünün ağası ol: özünə böyüklük elə, özünə yaxşı buyuruqlar ver, onda sən özünü çox varlı da, böyük görəvli də saya bilərsən.

Yurdunun böyüklüyünü anlamaq üçün onun haradan başladığını ansan yaxşıdır: Yurdun–sənin Ata Ocağından başlayır.

Heyvanları öldürməkdən çəkinin. Onların qanını tökməkdən insanlar elə quduzlaşdılar, sonra da biri-birini öldürməyə başladılar.

Ölümdən qorxma: bu ancaq yaşadığın evi dəyişməkdir, yerin üstündən altına köçməkdir.

Xanımı ilə yola getməyən adamı özünə arxadaş eləmə.

Gənclər! Öz istəklərinizi yerinə yetirməzdən öncə, onların nəyə yaradığını düşünüb daşının.

Krotonlular! Şəhərinizin yan-yörəsini uca hasarlarla bərkitməkdənsə, onu yaxşı yasalarla bərkidin.

Öz ömrünü elə yaşamağa çalış, ötən hər günün sonunda deyə biləsən: "Mən bu günü yaşadım".

Öz dövlətçiliyini sevən xalq! Çalış, yaşadığın toplumda: yerinə yetirilməyən buyuruqlara, bacarıqsız dövlət başçısına, gen-bol bəzənmiş yemək masasına yer olmasın. Bu üç yaramazlıq, toplumu da, ocaqlarınızı da yoxluğa sürükləyəcəkdir.

Ey gənclik! Öyrəncəliyə qarşı dayanmağı bacar: öyrəncəlik elə güclü yaramazlıqdır, o adamları qul olmağa belə alışdıra bilir.

Ağgünlülük ardınca qaçma: o eyzən sənin yanındadır. Ona görə də çalış, gününün çoxunu öz evində keçirəsən.

Bütün görəcəyin işləri öncə vicdanına, sonra da arxadaşlarına genəş.

Krotonlular! Sizdən soruşsalar: "Tanrılardan qabaq nə olub?"–deyərsiniz: "Qorxu ilə umunclar".

Krotonlular! İstərsiniz özünüzə yarımtanrılar düzəldin, ancaq yarımyasalar düzəltməkdən çəkinin.

Dilsiz-ağızsız heyvanların bizm işlərimizdən baş açmadığını düşünməyin. Ah, onlar birdən danışa bilsəydilər, bizim üzümüzə, nələr, nələr deyərdilər!

Ruhunu düşünməyə alışdır, çox keçmədən onun da qartal kimi qanadları olacaq.

***Kroton, İtaliyanın Güneyində şəhər olmuşdur, Pifaqor burada özünün fəlsəfə okulunu yaratmış, çoxsaylı ardıcılları ilə birgə, ayrıca bir topluq-icma qurmuşdur.**

**Qaynaq: Золотые законы и нравственные правила Пифагора. Астрель Полиграфиздат, Москва-2011 г.**

**Rus dilindən Araz Gündüz çevirib.**